*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 yanvar 2016-cı il № 4 (2019) Qiyməti 25 qəpik

## Rəsmi xronika

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lahssan Boufaresin etimadnaməsini qəbul edib.***

***Prezident İlham Əliyev Azərbaycan ilə Əlcəzair arasında əlaqələrin yaxşı səviyyədə olduğunu vurğuladı. Dövlətimizin başçısı bu əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Azərbaycan Prezidenti qarşılıqlı səfərlərin və biznes nümayəndələrinin birgə əməkdaşlığının ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayacağını qeyd etdi. Dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlarda, o cümlədən BMT çərçivəsində əməkdaşlığının önəmini vurğuladı. Hər iki ölkənin İslam Əməkdaşlıq Təşkilatında uğurla əməkdaşlıq etdiyini bildirən Prezident İlham Əliyev Azərbaycanın islam həmrəyliyinin gücləndirilməsi və əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində səylər göstərdiyini dedi. Dövlətimizin başçısı, həmçinin ölkələrimizin təhlükəsizlik və terrorizmə qarşı mübarizə sahələrində də əməkdaşlığının önəmini qeyd etdi.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də Monqolustanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Badamdorj Batxişiqin etimadnaməsini qəbul edib.***

***Azərbaycanın Monqolustan ilə əməkdaşlığı bütün sahələrdə inkişaf etdirməyə maraq göstərdiyini deyən Prezident İlham Əliyev bunun üçün yaxşı potensialın olduğunu bildirdi. Monqolustan Prezidenti Saxiaqiyn Elbeqdorj ilə müxtəlif beynəlxalq tədbirlərdə görüşlərini və ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə bağlı apardıqları danışıqları məmnunluqla xatırlayan dövlətimizin başçısı siyasi və iqtisadi əlaqələrin inkişaf etdirilməsinin xalqlarımız və ölkələrimiz üçün önəmli olduğunu vurğuladı.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də ABŞ-ın Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Çarlz Kapçanı qəbul edib.***

***Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafından danışıldı, ölkələrimiz arasında bir çox sahələrdə tərəfdaşlıq münasibətlərinin qurulmasından məmnunluq ifadə olundu. Zəngin tarixə malik olan enerji sahəsində əməkdaşlığın ABŞ-ın dəstəyi ilə daha da genişləndirilməsinin önəmi qeyd edildi. Beynəlxalq terrorizmə qarşı mübarizə, təhlükəsizlik sahəsində əməkdaşlıq məsələlərinə toxunularaq Azərbaycan hərbçilərinin Əfqanıstandakı sülhməramlı missiyanın tərkibində uğurlu fəaliyyətinin əhəmiyyəti vurğulandı, ölkəmizdə gedən demokratik proseslər və bunun perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.***

***Söhbət zamanı, həmçinin regional vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə edildi.***

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın Hərbi Dəniz Qüvvələrinin komandanını qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələrinin komandanı Muhammad Zakaullahı qəbul edib.***

Azərbaycan ilə Pakistan arasında siyasi münasibətlərin yüksək səviyyəsinin məmnunluq doğurduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin yaxın tərəfdaş və müttəfiq dövlətlər olduğunu, xalqlarımızın bir-birinə qardaşlıq münasibəti bəslədiyini dedi. Dövlətimizin başçısı Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin Azərbaycana səfərini və səfər zamanı aparılan konstruktiv müzakirələri məmnunluqla xatırladı. Ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən hərbi sahədə əlaqələrin genişləndirilməsinin önəmini vurğulayan Prezident İlham Əliyev bu sahədə əməkdaşlığın ikitərəfli münasibətlərimizin daha da gücləndirilməsinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı Pakistanın Hərbi Dəniz Qüvvələrinin komandanı Muhammad Zakaullahın ölkəmizə səfərinin bu sahədə əlaqələrimizin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Hərbi Dəniz Qüvvələrinin komandanı Muhammad Zakaullah Pakistan Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Pakistanlı qonaq ölkəmizin, xüsusilə Bakının gözəlliyinin onda dərin təəssürat yaratdığını dedi. Pakistan ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin tarixi, dini və mədəni köklərə malik olduğunu xüsusi vurğulayan Muhammad Zakaullah xalqlarımızın münasibətlərinin yüksək səviyyədə olduğunu dedi, ölkələrimiz arasında əlaqələrin gələcəkdə daha da genişləndirilməsinin vacibliyini qeyd etdi.

Dövlətimizin başçısı Prezident Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## ATƏT-in yeni sədri: Münaqişə bölgələrində gərginliyin azaldılması əsas məqsədlər sırasındadır

Yanvarın 14-də Vyanada ATƏT-in Daimi Şurasının xüsusi iclasında təşkilatın fəaliyyətdə olan sədri, Almaniyanın xarici işlər naziri Frank Valter Ştaynmayerin inauqurasiya mərasimi keçirilib. Tədbirdə F.V.Ştaynmayer ölkəsinin sədrlik dövrü üçün prioritet istiqamətləri barədə çıxış edib.

O, ATƏT-ə sədrlik edəcəyi dövrdə ölkəsi üçün prioritet təşkil edən məsələlər sırasında təhlükəsizlik və sabitliyin təşviqini xüsusilə ön plana çəkib, böhranlar və çağırışlarla zəngin hazırkı dövrdə bütün sferalarda dialoqun inkişafı, etimadın bərpası və təhlükəsizliyin təmin edilməsinin vacibliyini vurğulayıb.

ATƏT məkanındakı münaqişələrin etimad və təhlükəsizliyə ciddi zərbə vurduğunu qeyd edən xarici işlər naziri ölkəsinin sədrliyi dövründə dialoqun inkişafı, etimadın bərpası və təhlükəsizliyin təmin edilməsinin əsas prioritetlər olacağını elan edib.

Sədr ATƏT məkanındakı münaqişələrin həlli barədə danışarkən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunub. O deyib ki, Almaniya bir tərəfdən ATƏT-in sədri, digər tərəfdən Minsk Qrupunun üzvü kimi münaqişənin nizamlanması üçün razılaşmanın əldə edilməsində həmsədrlərin fəaliyyətini dəstəkləyəcək. Sözsüz ki, bütün cəhdlər intensivləşdirilməlidir. Biz qoşunların təmas xəttindəki və Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətdən narahatıq. Deeskalasiya ən təxirəsalınmaz hədəf olmalıdır. Buna görə də həmsədrlərin atəşkəsin pozulmasının araşdırılmasına dair mexanizmin hazırlanması təşəbbüsünü dəstəkləyirik.

Sədr münaqişə bölgələrində gərginliyin azaldılmasının və eləcə də ATƏT-in sahə missiyalarının fəaliyyətinin genişləndirilməsinin əsas məqsədlər sırasında olduğunu qeyd edib.

## Fransanın bəzi şəhərlərinin Azərbaycanın işğal altındakı şəhərləri ilə imzaladığı “xartiyalar” ləğv ediləcək

Bir müddət əvvəl Ermənistan kütləvi informasiya vasitələrində Fransanın bəzi şəhərlərinin Azərbaycanın işğal altında olan şəhərləri ilə "qardaşlaşması" və əməkdaşlıq haqqında "sənədlər" imzalanması haqqında məlumatlar verilmişdi.

AZƏRTAC-ın Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən bununla əlaqədar nə kimi tədbirlər görülməsi ilə bağlı sualını nazirliyin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev cavablandırıb.

H.Hacıyev bildirib ki, qondarma rejimin nümayəndəsi kimi özünü təqdim edən Bako Saakyanın 2015-ci il mayın 17-19-da Fransaya səfəri və bu səfər zamanı Fransanın vilayət və şəhərləri ilə "əməkdaşlıq xartiyası"nın imzalanması ilə əlaqədar Xarici İşlər Nazirliyinin təlimatı əsasında Fransadakı səfirliyimiz tərəfindən davamlı fəaliyyət həyata keçirilir. Aparılan işin nəticəsində Fransa hökuməti tərəfindən rəsmi cavab addımı kimi xarici işlər və daxili işlər nazirləri səviyyəsində yerli prefekturalar və ali komissarlara iyulun 2-də sirkulyar təlimat göndərilib. Yerli özünüidarəetmə qurumlarının beynəlxalq əməkdaşlıq sahəsində səlahiyyət məhdudiyyətlərinə dair xəbərdarlıq edən həmin sənəddə mərkəzi hakimiyyətin siyasətinə və Fransanın beynəlxalq öhdəliklərinə zidd olaraq, yerli orqanların Fransa hökumətinin tanımadığı qeyri-qanuni rejimlər, o cümlədən qondarma "Dağlıq Qarabağ rejimi" ilə beynəlxalq əməkdaşlığa dair sənədlər imzalamasına qadağa qoyulub. Həmçinin artıq imzalanmış qeyri-qanuni "əməkdaşlıq xartiyaları"nın ləğvi istiqamətində hüquqi müstəvidə zəruri addımların atılması davam etdirilir. Belə ki, səfirliyin əməkdaşlıq etdiyi vəkil tərəfindən Azərbaycanın işğal altında olan şəhərləri ilə qeyri-qanuni sənədlər imzalamış Fransa şəhərlərinin yerləşdiyi vilayətlərin prefektlərinə müvafiq sorğular göndərilib və Fransanın mövcud qanunlarına əsaslanaraq, imzalanmış qeyri-qanuni sənədlərin ləğv edilməsi məqsədilə onların İnzibati Məhkəməyə təqdim edilməsi məsələsi qaldırılıb. Sorğuya cavab olaraq, Drom vilayətinin prefekti Didye Loqa bu günədək nə "Valans və "Stepanakert" (Xankəndi) şəhərləri arasında dostluq xartiyası" və "Burq-Le-Valans və Şuşa şəhərləri arasında dostluq xartiyası" sənədinin, nə də belə bir sənədlərin imzalanmasına icazə verən hər hansı məlumatın ona təqdim edilmədiyini vurğulayıb və bu səbəbdən də sözügedən sənədin qüvvəyə minmədiyini və beləliklə də, onun icra edilmə imkanının olmadığını bildirib.

Prefekt Valans şəhəri tərəfindən sözügedən "dostluq xartiyaları"nın və ya ondan irəli gələn hər hansı sənədin ona təqdim ediləcəyi təqdirdə həmin sənədlərin ləğv edilməsi üçün onu dərhal İnzibati Məhkəməyə təqdim edəcəyini bildirib.

Göründüyü kimi, Ermənistanın Fransada olan erməni lobbi dairələri və onların təsiri altında olan bəzi şəxslər Fransanın qanunlarını və beynəlxalq səviyyədə üzərinə götürdüyü öhdəliklərini pozmaqdan belə çəkinməyərək Fransanın rəsmi dövlət siyasətinə qarşı fəaliyyət aparırlar.

Bir daha bildirmək istərdik ki, ölkəmizin Ermənistan tərəfindən işğal edilmiş ərazilərində həyata keçirilən hər bir qeyri-qanuni fəaliyyət Xarici İşlər Nazirliyi tərəfindən dərhal ciddi nəzarətə götürülür və araşdırılır. Burada hər hansı dövlətin hüquqi və fiziki şəxslərinin fəaliyyəti müəyyən edildiyi halda isə aidiyyəti diplomatik nümayəndəliklərimizə təlimat verilir və həmin ölkə qarşısında bu məsələ qaldırılır, zəruri diplomatik və hüquqi addımlar atılır.

## Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunda ABŞ-dakı Koreya icmasının nümayəndələri ilə görüş keçirilib

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunda ABŞ-da yaşayan Koreya icmasının aparıcı nümayəndələri ilə görüş keçirilib. "Dinlərarası harmoniyanın təşviqi" devizi altında təşkil olunan görüş Koreya icması ilə bu səpkidə indiyədək keçirilən ilk tədbir kimi yadda qalıb. Görüşün məqsədi ABŞ-ın ən nüfuzlu icmalarından olan, təqribən 2 milyondan çox Koreya mənşəli amerikalını özündə birləşdirən Koreya icması ilə qarşılıqlı faydalı münasibətlərin qurulması olub.

Los-Ancelesdə fəaliyyət göstərən nüfuzlu KCCD təşkilatının dəstəyi ilə keçirilən tədbirdə Koreya icmasının aparıcı nümayəndələri və Koreya media qurumlarının təmsilçiləri iştirak ediblər.

Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev görüşdə ölkəmizin tarixi, çoxəsrlik tolerantlıq və multikulturalizm ənənələri ilə bağlı çıxış edib. Azərbaycanın 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra keçdiyi tarixi inkişaf yolundan danışan diplomat bu səpkidə xalqımızın ümummilli lideri Heydər Əliyevin əvəzsiz xidmətlərindən, ulu öndərin daxili və xarici siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən və nəticədə Azərbaycanın dünyanın ən sürətlə müasirləşən dövlətlərindən birinə çevrilməsindən bəhs edib.

Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında münasibətlərin yüksək səviyyədə olduğunu, bu yaxın münasibətlərin Birləşmiş Ştatlarda da davam etdirilməsinin vacibliyini qeyd edən baş konsul ABŞ-ın Koreya icması ilə birgə uğurlu əməkdaşlıq üçün kifayət qədər potensialın olduğunu söyləyib. Diplomat vurğulayıb ki, Azərbaycan və Koreya dillərinin eyni dil ailəsinə - Altay dil ailəsinə mənsub olması hər iki xalq arasında qardaşlıq bağlarının yaranmasına gözəl zəmin yaradır.

Tədbirdə çıxış edən KCCD təşkilatının rəhbəri Heypin İm, təşkilatın idarə heyətinin həmsədrləri Con Park və Uqi Kim belə bir tədbirin keçirilməsindən məmnun qaldıqlarını deyib, səmərəli əməkdaşlıq üçün bu cür görüşlərin mütəmadi təşkilinin önəmini qeyd ediblər.

Onlar Azərbaycanın tolerantlıq və multikulturalizm sahəsində əldə etdiyi tarixi nailiyyətlərin təqdirəlayiq olduğunu vurğulayıb, hazırda beynəlxalq aləmdə dini və mədəni zəminlərdə cərəyan edən qanlı toqquşmalar fonunda Azərbaycanın tolerantlıq modelinin daha geniş şəkildə təbliğ edilməsinin zəruriliyini bildiriblər.

Koreyanın tanınmış televiziya kanalı, 26 milyon izləyicisi olan TVK kanalı görüş barədə reportaj yayımlayıb.

**AZƏRTAC**

# Müdafiə naziri ABŞ-ın Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru ilə görüşüb



***Yanvarın 13-də Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov ABŞ-ın Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Çarlz Kapçan ilə görüşüb.***

Görüşdə bölgədəki hərbi-siyasi vəziyyət, Azərbaycan hərbçilərinin Əfqanıstandakı sülhməramlı missiyanın tərkibində uğurlu fəaliyyəti, hərbi təhsil, treninq və təcrübə mübadiləsi, eləcə də qarşılıqlı maraq kəsb edən sahələr üzrə müzakirələr aparılıb.

İkitərəfli hərbi əməkdaşlıq əlaqələrinin mövcud vəziyyətinə toxunan nazir Azərbaycanı narahat edən problemli məsələləri qonağın diqqətinə çatdırıb. Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətinin davam etdiyini və danışıqların rəsmi Yerevan tərəfindən qəsdən uzadılmasının regiondakı şəraitə mənfi təsir göstərməsini xüsusi vurğulayıb.

Görüşdə ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta da iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan-Pakistan hərbi əməkdaşlığı dostluq və qardaşlıq münasibətləri üzərində qurulub

***Yanvarın 14-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı admiral Muhammad Zakaullah ilə görüşüb.***



Admiral M.Zakaullahın rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın, sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək əklillər və gül dəstələri qoyub.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Protokola uyğun olaraq qonaq Şərəf kitabını imzalayıb.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq Azərbaycan ilə Pakistan arasında hərbi sahədə əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin daim inkişaf etdiyini və hər iki tərəf üçün qarşılıqlı faydalı olduğunu vurğulayıb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Pakistanın Azərbaycanı dəstəklədiyi və xalqımızın haqq işinə kömək etməyə hazır olduğu xüsusi qeyd edilib.

Tərəflər Azərbaycan ilə Pakistan arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində münasibətlərin genişləndirilməsi imkanları və perspektiv istiqamətlərini müzakirə edib, döyüş hazırlığı, birgə təlimlərin keçirilməsi, terrorizmə qarşı mübarizədə müştərək əməkdaşlığın, eləcə də Hərbi Dəniz Qüvvələri arasında əlaqələrin artırılmasının vacibliyini xüsusi vurğulayıblar.

Ölkəmizə səfərdən məmnunluğunu bildirən qonaq Azərbaycan-Pakistan münasibətlərinin möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Torpaqlarımızı qoruyan hərbi qulluqçunun sağlamlığı daim diqqətdə olmalıdır"

## Müdafiə naziri Silahlı Qüvvələrin tibb xidmətlərinin rəhbər heyəti ilə görüşüb





***Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti əsaslı təmirdən sonra istifadəyə verilmiş Silahlı Qüvvələrin Hərbi Tibb Fakültəsində olublar.***

Hərbi hissə və birləşmələrin tibb xidməti rəisləri, tibbi hərbi hissə və müəssisələrin komandirləri, Silahlı Qüvvələrin Baş Klinik Hospitalının şöbə və bölmə rəislərinin iştirak etdiyi toplantıda əvvəlcə ümummilli lider Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda mübarizədə canlarını fəda etmiş şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov toplantıda çıxış edərək ordu həyatında tibb xidməti sahəsinin vacib istiqamətlərdən biri olduğunu xüsusi qeyd edib. "Əsgərin xidmət etdiyi bütün sahələrdə hərbi həkimlərin fəaliyyəti diqqəti cəlb edir. Belə olan halda hər bir həkim üzərinə düşən məsuliyyət hissini artırmalıdır. Bölmələrdə şəxsi və ictimai gigiyena qaydalarına əməl edilməsində, komandir tələbkarlığının artırılmasında sizin fəaliyyətiniz yetərincə olmalıdır. Ordumuzda xəstəliklərə rast gəlinməməsi üçün bu istiqamətdə təxirəsalınmaz tədbirlərin müntəzəm şəkildə həyata keçirilməsi vacibdir. Şəxsi heyətin geyiminə, qidalanmasına, məişət şəraitinə nəzarət etməklə, əsgərin sağlamlığını tam qorumaq mümkündür. Dövlətin, xalqın güvəndiyi və torpaqlarımızı qoruyan hərbi qulluqçuların sağlamlığı hər birimiz üçün önəmlidir", - deyə nazir bildirib.

General-polkovnik Zakir Həsənov Hərbi Tibb Fakültəsində müasir tələblərə cavab verən laboratoriya otaqlarının, fənn kabinetlərinin, simulyasiya mərkəzinin fəaliyyət göstərməsini gələcəyin peşəkar hərbi həkim kadrlarının hazırlanmasında mühüm rol oynadığını vurğulayıb.

Müdafiə naziri daha sonra qeyd edib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Silahlı Qüvvələrdə quruculuq işlərindən, əsgər və zabitlərin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlardan və ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsi üçün görülən vacib tədbirlərdən danışıb.

"Dövlətimizin başçısının diqqət və qayğısı sayəsində Azərbaycan Ordusu düşmənlə təmas xəttində tam üstünlüyü əldə edib. Artıq cəbhədə ermənilərin qorxuya düşdükləri heç kimə sirr deyil. Cəbhə xəttində son bir ildə ordumuz tərəfindən xeyli sayda düşmən məhv edilib. Nə qədər ki, ermənilər öz işğalçılıq siyasətindən əl çəkməyiblər, cənab Prezidentin dediyi kimi, "Qarabağ torpağı erməni işğalçılarının ayağı altında od tutub yanacaqdır". Erməniləri işğal etdikləri ərazilərdə dinc oturmağa qoymayacağıq. Bizim məqsədimiz budur", - deyə nazir bildirib.

Son illərdə şəxsi heyətin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən də danışan Müdafiə naziri vurğulayıb ki, son iki ildə müasir dövrün tələblərinə cavab verən hərbi şəhərciklər tikilərək şəxsi heyətin ixtiyarına verilib. Zabit və əsgərlərin rahatlığına və sağlamlığına təminat verən bu işlər yenə davam etdiriləcək. Artıq yetərli sayda hərbi qulluqçu xidməti mənzillərlə də təmin edilib. Bu yaxınlarda isə 500 hərbi qulluqçuya daimi mənzillər verilib.

Müdafiə naziri bundan sonra da hərbi qulluqçularımızın Vətən qarşısında xidməti borclarını şərəflə yerinə yetirəcəklərini bildirərək Silahlı Qüvvələrin tibb heyətinə uğurlar arzulayıb.

Sonra Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev çıxış edərək son illər Silahlı Qüvvələrdə tibb xidməti sahəsində aparılan islahatların müsbət nəticələrini, ordu rəhbərliyinin hərbi səhiyyənin inkişafına diqqət yetirdiyini nəzərə çatdırıb.

General-mayor N.Əliyev qeyd edib ki, ordumuzda ilk dəfə olaraq xəstələrin təxliyyəsi üçün ambulans helikopterin alınması yaralılara, xəstələrə vaxtında və təxirəsalınmaz tibbi yardımın göstərilməsini mümkün edib. O, orduda tibb xidmətinin səviyyəsinin daha da yüksəldilməsi məqsədilə ölkəmizin qabaqcıl tibb mütəxəssislərinin iştirakı ilə seminarların keçirildiyini, Türkiyənin Gülhanə Tibb Akademiyası və Almaniyanın qabaqcıl tibb müəssisələrinin yüksək ixtisaslı həkim briqadalarının dəfələrlə Hərbi Tibb Fakültəsində olduğunu da diqqətə çatdırıb.

Sonda nazir toplantı iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

**"Azərbaycan Ordusu",**
**fotolar**
**Natiq İSAYEVİNDİR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan ilə Böyük Britaniya Müdafiə nazirlikləri arasında qərargah danışıqları keçirilib

Yanvarın 11-də London şəhərində Azərbaycan ilə Böyük Britaniya Müdafiə nazirlikləri arasında qərargah danışıqları keçirilib.

Danışıqlar zamanı ikitərəfli hərbi əməkdaşlığın cari vəziyyəti və perspektiv istiqamətləri nəzərdən keçirilib. Yekunda "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Birləşmiş Krallığın Müdafiə Nazirliyi arasında 2016/2017-ci maliyyə ili üzrə hərbi əməkdaşlıq Planı" imzalanıb.

İllik əməkdaşlıq Planı əsasən təlim-təhsil sahəsindəki ikitərəfli fəaliyyətləri, o cümlədən dil hazırlığı, zabitlərin təkmilləşdirmə kursları və sülhməramlı əməliyyatlara hazırlıq üzrə treninqlər daxil olmaqla Azərbaycanda və Böyük Britaniyada təşkil olunacaq 17 müxtəlif tədbirin icrasını nəzərdə tutur.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 121 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində və Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çaylı, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Yusifcanlı, Nəmirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 122 dəfə atəş zərbəsi endirib.

***15 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 110 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Yusifcanlı, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 112 dəfə atəş zərbəsi endirib.

# Gənclərin hərbi hissələrə qəbulu zamanı onların sosial-məişət şəraitinə ciddi diqqət yetirilir



***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, yuxarı qərargahlar tərəfindən yaradılan yoxlama qrupları hərbi hissələrdəki vəziyyəti öyrənir, gənc əsgərlərin qəbulu, yerləşdirilməsi, eləcə də xidmətə və kollektivə uyğunlaşması prosesinə nəzarət edirlər.***

İqlim şəraiti və digər vacib amillər nəzərə alınaraq əsgərlərin sağlamlığı məsələsinə xüsusi diqqət yetirilir, onlar təkrar tibbi müayinədən keçirilirlər. Gənc əsgərlərin qida, geyim, əşya, əmlakla təminatına və digər sosial-məişət şəraitinə ciddi diqqət yetirilir. Yenicə hərbi hissəyə daxil olan şəxsi heyət birinci dərəcə geyim, əşya-əmlakla təmin edilərək müasir tələblərə cavab verən əsgər yataqxanalarında yerləşdirilir.



Şəxsi heyətin yüksək mənəvi-psixoloji hazırlığının, psixoloji dayanıqlığının saxlanılması və təmin edilməsi məqsədilə "Silahlı Qüvvələrdə psixoloji işin təşkili və aparılması haqqında təlimat"ın tələblərinə uyğun olaraq hər bir gənc əsgərlə fərdi söhbət aparılır və psixoloji testlər keçirilir. Eyni zamanda gənc əsgərlər hərbi hissələrin yaradılması tarixi, keçdiyi döyüş yolu, onun ərazisi ilə tanış olur, xidmətin xüsusiyyətləri, bölmələrin yerləşdirilməsi, daxili nizam-intizam qaydaları, şəxsi heyətin məişət şəraiti, gündəlik fəaliyyəti və asudə vaxtın təşkili barədə məlumat əldə edirlər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Silahlı Qüvvələrimizin bölmələri heç bir itki verməyib"

Ermənistanın elektron kütləvi informasiya vasitələri Azərbaycan Silahlı Qüvvələrinin cəbhə xəttində guya təxribat törətməsi və itki verməsi barədə növbəti dəfə yalan məlumat yayıblar.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, düşmən tərəfi ictimaiyyəti çaşdıran və həqiqətə uyğun olmayan bu cür xəbərləri yaymaqla gələcək təxribatları üçün zəmin yaratmaq məqsədi daşıyır.

Azərbaycanın Müdafiə Nazirliyi bildirir ki, Silahlı Qüvvələrimizin bölmələri heç bir itki verməyib və qoşunların təmas xəttində əməliyyat şəraitinə tam nəzarət edir.

*Gənc zabitlərimiz*

# Şərəfli yolun başlanğıcında

***Həyatda ilklər önəmlidir. Yeni kitaba başlamaq kimidi. O kitabki oxumağa yox, yazmağa başlayırsan. Məsələn: ilk söz, ilk dərs ili, ilk sevgi və s. Və hər ilkə başlama sevincli, bir o qədər də məsuliyyətlidir. Həyatını orduya, Vətənin müdafiəsinə bağlayanların ilkləri isə çox fərqlidi. İlk formanı geyinmək yeni bir həyatın, yeni bir kitabın yazılması deməkdir. Bu geyimin sevinci və məsuliyyəti tam fərqlidir.***

***Bu dəfəki həmsöhbətlərim hələ erkən yaşlarında forma geyinərək həyatlarını orduya bağlayanlardı.***



*Leytenant Həsən Rzazadə*

Leytenant Həsən Vüqar oğlu Rzazadə 15 iyun 1994-cü ildə Sumqayıt şəhərində anadan olub. 2011-2015-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb.

- Hərbçi olmağıma səbəblər çoxdur. Həm ata yolunu davam etdirmək, həm formaya olan həvəs, həmçinin ata-baba ocaqlarımızın işğalda olması. 1988-ci ildən 1993-cü ilin noyabrınadək düşmənə baş əyməyən, yağı hücumlarına sinə gərən, yüzlərlə şəhid verən doğma Zəngilan işğala məruz qalan ən sonuncu rayon olub. 188 şəhid verib, 44 nəfər itkin düşüb. İşğalda olan bütün torpaqlar bizimdir. Və Ali Baş Komandan əmr verdiyi gün hər birimiz Vətən uğrunda irəliyə atılacaq, torpaqlarımızı işğaldan azad edəcəyik. Qələbə, zəfər günü mənimçün ikiqat sevinc olacaq. Həm Vətənimiz bütövləşəcək, həm də atamın uşaqlığını keçirdiyi yerlərdə olacam, gəzdiyi küçələrdə gəzəcəm. Və o sevinci bütün xalqımızla birgə yaşayacağıq, - dedi gənc zabit.

Həqiqətən də, 1993-cü ildə Azərbaycan Ordusunun yaranmasından söhbət gedirdisə, artıq bu gün regionun ən güclü silahlı qüvvəsi məhz Azərbaycan Ordusudur. Bu, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu ilə bağlı düşünülmüş siyasi xəttinin və bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən ardıcıl davam etdirilməsinin nəticəsidir. Bu gün dövlət rəhbərliyinin Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsinə hesablanmış addımlar atması ordumuzun müasir səviyyədə inkişafına zəmin yaradıb. Prezident İlham Əliyevin vaxtilə elan etdiyi "Azərbaycanın hərbi büdcəsi ümumilikdə işğalçı Ermənistanın dövlət büdcəsinə bərabər olmalıdır" tezisi qısa müddətdə öz təsdiqini tapmışdır. İndi Azərbaycan Silahlı Qüvvələrinin timsalında ən müasir döyüş əməliyyatları aparmaq qabiliyyətinə malik bir ordunun nümunəsini görürük.

Söhbətimiz zamanı gənc zabit yaradılan şəraitdən, maddi-texniki təminatın güclənməsindən söhbət açmağı da unutmadı.

"Silahlı Qüvvələrimizdə olan bütün hərbi hissələrdə maddi-texniki təminat gücləndirilib. Silah-texnika müasir səviyyəyə gətirilib, əşya, ərzaq təminatı isə yüksək keyfiyyətdədir. 28 il ordu sıralarında xidmət edən və hazırda ehtiyatda olan atam deyir ki, ordumuz günü-gündən güclənir. Həqiqətən, bu gün biz bunun şahidiyik.

"N" hərbi hissəsində xidmətimin ilk günlərində təcrübəli zabitlərin mənə olan mənəvi qayğılarını qeyd etməmək mümkün deyil. Baş leytenant Çingiz Məmmədov xidmətimizi düzgün təşkil etməyimiz üçün əlindən gələni edir, bizi düzgün istiqamətləndirir".



*Leytenant Polad Feyzullayev*

Növbəti həmsöhbətim leytenant Polad Feyzullayev Mingəçevir şəhərində anadan olub. Əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb.

- Hərb sənətinə, silahlara olan marağım həyatımı orduya bağlamağıma səbəb oldu, - deyə zabit söhbətə başlayır. - Həmçinin, Qarabağ müharibəsi iştirakçısı olan əmim Elbrus Feyzullayev mütəmadi olaraq döyüşlərdən, ermənilərin başımıza açdığı bəlalardan danışırdı. Bu da məni hərbçi olmağa ruhlandırdı.

Leytenant xidmətinin ilk günlərindən uğurlar qazana bilib. 2013-cü ildə keçirilən paradda uğurlu iştirakına görə Silahlı Qüvvələrin 95 illik yubiley medalı ilə təltif olunub.



*Leytenant Turqay İbrahimoğlu*

Leytenant Turqay İbrahimoğlu isə Naxçıvan Muxtar Respublikasında anadan olub. 2011-2015-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb.

Gənc zabit bildirdi ki, ordu böyük bir anlayışdır. "Bir bölmədə onlarla, yüzlərlə, minlərlə əsgər xidmət edir. Təbii ki, ordu həyatı, əsgərlər arasında münasibətlər hərbi nizamnamələrlə müəyyən olunur. Hər bir hərbi qulluqçu bu nizamnamələri dərindən öyrənməli, xidmətini yüksək tələblər səviyyəsində qurmalıdır. Xidmətimin ilk günlərindən özümə qarşı tələbkaram, tabeliyimdə olan əsgərlərlə rəftarım da əsl komandir-əsgər münasibətləri çərçivəsindədir.

Hər bir xalqı dünyada tanıdan, məşhurlaşdıran, aparıcı söz sahibinə çevirən amillərdən biri də onun ordusu, silahlı qüvvələridir. Tarixən hər bir millət ordusuna güvənib, onu milli qürur və fəxarət ünvanı sayıb. Hər bir azərbaycanlı da bu gün öz ordusuna güvənir, inanır və qürurlanır.

Vətən anlamını yalnız belə izah edərəm. Vətəni izah edən ən əhəmiyyətli söz budu bəlkə də... Vətəndə qazandım hər şeyi... Eşqi, sevgini, etibarı, hörməti, inancı, xöşbəxtliyi, kədəri belə... Qısası həyatı Vətəndə qazandım. Və azərbaycanlı olmaq həyatımdakı ən böyük zəfərimdi".

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu"**



# Kursantlar keçmişimizi unutmurlar

***Heydər Əliyev adına Hərbi Liseydə tədbirlər keçirilib.***

Əvvəlcə Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının Naxçıvan şəhərində Xatirə Muzeyinə gəzintiləri təşkil olunub.

Xatirə Muzeyinin direktoru Aynur Məhərrəmova bildirdi ki, ermənilər tərəfindən törədilmiş soyqırımı qurbanlarının, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsini əbədiləşdirmək məqsədi ilə muzey 2000-ci ildə yaradılıb. Burada soyqırımı faktları, şəhidlərin şəkilləri, ermənilərə qarşı aparılmış döyüşlər barədə materiallar, eyni zamanda Qəhrəmanlarının foto şəkilləri, şəxsi əşyaları və onlara aid digər eksponatlar mühafizə olunur. Kursantlar muzeydə sərgilənən eksponatlarla tanış olublar.

Naxçıvan şəhərindəki Gənclik Mərkəzinə gəlmiş Heydər Əliyev adına Hərbi Liseyin kursantlarına "Azadlığa gedən yollar" sənədli filmi nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayevin tədbirlə bağlı fikirlərini öyrəndim. Müsahibim qeyd etdi ki, filmin nümayiş etdirilməsində məqsəd gənclərimizin tarixi unutmaması, onlara vətənpərvərlik hisslərinin aşılanmasından ibarətdir. "Əlbəttə, filmə çoxlu sayda kursantın baxması tədbirin əhəmiyyətindən xəbər verir. Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə diqqət mərkəzində saxlanıldığından belə tədbirlər mütəmadi keçirilir".

**Nəriman NƏCƏFOV, "Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** *Azərbaycan xalqının istiqlal mübarizəsi və qəhrəmanlıq ənənələri.*

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən, Azərbaycan xalqının milli-azadlıq hərəkatı və 20 Yanvar faciəsi zamanı qəhrəmanlıq nümunələri göstərmiş Azərbaycan vətəndaşları haqqında məlumatları özündə əks etdirən kitab materiallarından istifadə etməli, öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə almaqla mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

***SUALLAR:***

***1. Azərbaycanda milli-azadlıq hərəkatı və 20 Yanvar faciəsi.***

***2. Tarixin gerçəkliyi, Qanlı Yanvarın ibrət dərsləri.***

## *Azərbaycanda milli-azadlıq hərəkatı və 20 Yanvar faciəsi*

Azərbaycan xalqı əsrlər boyu öz azadlığı uğrunda qəhrəmanlıqla mübarizə edib, müstəqillik naminə qurbanlar verib. Tarix boyu qəddar düşmənlərimiz münbit torpaqlarımızın nemətlərindən bəhrələnmək üçün Vətənimizi istila altında saxlamağa, xalqımızın azadlıq və istiqlaliyyət arzularını boğmağa çalışsalar da, buna nail ola bilməyiblər. Hər bir vətənsevər azərbaycanlının köksündə yaşayan, közərən azadlıq qığılcımı zaman-zaman alovlanaraq xalqımızı mübarizəyə səsləyib. Belə mübarizələrdən biri də, bugünkü azadlığımıza, respublikamızın müstəqilliyə qovuşmasına yol açmış ötən əsrin 80-ci illərinin axırları, 90-cı illərinin əvvəllərində yeni vüsətlə baş qaldırmış xalqımızın milli azadlıq mücadiləsidir.

Bu mücadilənin ən pik nöqtəsi isə xalqımızın azadlıq və istiqlaliyyət uğrunda hər cür ölümə, cəfaya hazır olduğunu bütün parlaqlığı ilə nümayiş etdirmiş 20 Yanvar 1990-cı il hadisələridir.

1988-ci ildə Dağlıq Qarabağda baş qaldırmış erməni separatizminə Kreml rəhbərliyi tərəfindən rəvac verilməsi, ardınca SSRİ Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətində yaradılmış Xüsusi İdarə Komitəsinin Azərbaycana qarşı qərəzli mövqeyi sayəsində muxtar vilayətin idarə-müəssisələrinin tədricən Azərbaycanın tabeliyindən çıxarılması, azərbaycanlıların Ermənistandakı tarixi-etnik torpaqlarından deportasiya edilməsi, Moskvanın erməni separatçılarını cəzalandırmaq əvəzinə, Azərbaycan xalqının əl-qolunu bağlaması millətin səbir kasasını daşdırdı və xalqın yalnız özünə güvənə biləcəyini isbat etməklə XX əsrdə ikinci dəfə xalqımızı milli azadlıq mübarizəsinə qaldırmış oldu. SSRİ rəhbərliyindəki havadarlarına arxalanan erməni daşnaklarının Azərbaycan ərazilərinə və dinc əhaliyə qarşı azğın cinayətləri haqlı olaraq xalq kütlələrinin hiddətinə səbəb oldu.

1988-ci ilin noyabr-dekabr aylarında keçirilən ümumxalq mitinqi, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycanla İran arasında sərhəd dirəklərinin xalq tərəfindən sökülməsi SSRİ rəhbərliyini qorxuya salmaya bilməzdi. Azərbaycanda bütün gücü, möhtəşəmliyi ilə baş qaldıran milli azadlıq hərəkatının ittifaqın imperiya zülmündən əzab çəkən digər xalqları da ayağa qaldıracağından ehtiyatlanan kommunist partiyası rəhbərləri aktiv fəaliyyətə keçməyə qərar verdilər.

Başqalarına dərs olsun deyə Azərbaycan xalqını cəzalandırmağı qərara alan mərkəzi hakimiyyət SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin vasitəsi ilə xalq hərəkatının boğulmasına əlverişli zəmin yaratmaq üçün Bakıda, Sumqayıtda, Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə təxribatlar törədərək erməni və rus mənşəli əhalinin "qondarma talanını" təşkil etdi. 1990-cı il yanvarın 13-15-də Dövlət Təhlükəsizliyi Komitəsinin Sumqayıt ssenarisi əsasında "erməni talanları" törətməsi Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq fürsəti vermiş oldu. Kütləvi ixtişaşların qarşısını almaq bəhanəsi əldə etmiş SSRİ rəhbərliyi 1990-cı ilin yanvarında Bakıya qoşun hissələri yeritməyə başladı.

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti Azərbaycan Ali Sovetinin razılığı olmadan yanvarın 20-də saat 00:00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Xalqı qəfildən yaxalamaq, ona divan tutmaq, qırğın törətmək məqsədi ilə qoşunlardan istifadə etmək niyyəti, heç kəsə aman verilməyəcəyi elan edilmədi. Fövqəladə vəziyyətin başlanması gizli saxlanıldı. Fövqəladə vəziyyətin vaxtında elan edilməsi Moskvanın planlarını poza bilərdi. Piketçilər Moskvanın və respublikanın səlahiyyətli nümayəndələrinin ordunun şəhərə girməyəcəyi haqqında dəfələrlə təkrar etdikləri vədlərə inanmışdılar. Xalqa məlumat verilməsin deyə, yanvarın 19-da saat 19:27-də Azərbaycan televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00:00-da başlayacağının elan olunmasına baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-də birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na SSRİ Müdafiə naziri Dmitri Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, eyni zamanda adamları avtomat silahlardan güclü atəşə tuturdular. Şəhərin küçələri yüzlərlə ölmüş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq olunmuşdu. Qoşunlar təsadüfən yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın altına salır, əzabla öldürürdülər. Onlar tibb müəssisələrini dövrəyə alaraq yaralı mülki şəxslərin buraya gətirilməsinə, habelə tibbi heyətin yaralılara köməyə getməsinə mane olurdular.

Bakıya yeridilən Sovet qoşunları həmin gecə şəhərin müxtəlif yerlərində 121 nəfəri qətlə yetirdi, 700-dən artıq vətəndaş isə yaralandı və xəsarət aldı. Respublikanın digər yaşayış məntəqələrinə də Sovet ordusunun hücumu nəticəsində o günlərdə ümumilikdə 132 nəfər, o cümlədən 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmışdı. Həlak olanlardan 123-ü kişi, 5-i qadın, 4-ü isə azyaşlı uşaqlar, yaralananlardan isə 25-i qadın, 20-si uşaq idi. 400 nəfər həbs olunmuş, 4 nəfər itkin düşmüşdü.

20 yanvar tarixindən Bakı şəhərində fövqəladə vəziyyət tətbiq olunması haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar tarixli fərmanı isə ancaq yanvarın 20-də səhər saat 6-da xalqa elan edildi.

Qanlı Yanvara etiraz olaraq respublikada 40 günlük ümummilli tətil başlandı. Əli heç yerə çatmayan, öz rəhbərliyi tərəfindən belə ağrısı, acısı duyulmayan xalqın haqq səsinə səs verən, xalqın harayını bütün dünyaya çatdıran isə o zaman Moskvada DTK-nın nəzarəti altında yaşayan Heydər Əliyev oldu. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək burada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etdi. Bu ağır gündə xalqla olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi.

Bu tarixi çıxışın mətni respublikada, bütün dünyada geniş yayıldı. Təklənən, əli heç nəyə çatmayan xalqın qəlbində ümid çırağı yandı. Xalq Heydər Əliyev kimi nüfuzlu şəxsiyyətin, doğma oğlunun onunla olduğunu, onu cəsarətlə müdafiə etdiyini gördü, ürəkləndi.

Bakı, bütün Azərbaycan, fövqəladə vəziyyətə baxmayaraq, yanvarın 22-də şəhidlərlə vidalaşdı. Şəhər matəm libası geymişdi. Respublikada 3 gün matəm elan olunmuşdu. "Azadlıq" meydanında böyük matəm mitinqi keçirildi. Mitinqdə və dəfn mərasimində 2 milyona qədər adam iştirak edirdi. Bu, azadlıq yolunda müqəddəs şəhidlərə ehtiramın, habelə Moskvanın qanlı əməllərinə qarşı etirazın ifadəsi idi. Şəhidlər şəhərin ən uca yerində - Dağüstü parkda dəfn edildilər.

Hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Çox nadir hallarda bu iki məqam üst-üstə düşür. Azərbaycan xalqı 1990-cı ilin Qanlı Yanvarını həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşadı. O müdhiş gecənin sınağından mətanətlə çıxan Azərbaycan xalqı azadlıq uğrunda mübarizəyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. Sonrakı tariximiz göstərdi ki, xalqımızın azadlıq yolu qəhrəmanlıq tariximiz olan 20 Yanvardan keçərək müstəqilliyə, istiqlaliyyətə apardı.

## *Tarixin gerçəkliyi, Qanlı Yanvarın ibrət dərsləri*

1990-cı il yanvarın 20-də Azərbaycan paytaxtına və respublikanın bir sıra rayonlarına Sovet ordusu hissələrinin qanunsuz yeridilməsi, dinc əhalinin qırılması totalitar rejimin törətdiyi ən qanlı aktlardan biri və bütün bəşəriyyətə qarşı yönəldilmiş cinayət idi. Bu cür cinayətlərin təhqiqi, onların səbəblərinin, nəticələrinin üzə çıxarılması, təşkilatçılarının aşkarlanması məsələsində vaxt amili yoxdur və bunlar vəhşilik, soyqırımı əməllərinin təkrarlanmaması üçün xəbərdarlıq olmalıdır.

Yanvar faciəsinin bir çox səbəbləri var, onun kökləri tarixin dərinliklərinə gedib çıxır. Sovet İttifaqı Kommunist Partıyasının 1-ci katibi, SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçovun müəllifi olduğu yenidənqurma onların inkişafını ancaq sürətləndirdi, labüd faciənin son mərhələsini yaxınlaşdırdı. Bəs bu səbəblər ümumən hansılardır? Əvvəla, mərkəzin Sovet imperiyasını, kommunist sistemini nəyin bahasına olursa-olsun, qoruyub saxlamaq cəhdi; ikincisi, milli respublikalarda hakimiyyəti və oyuncaq rejimləri möhkəmlətmək cəhdi; üçüncüsü, SSRİ rəhbərlərinin Azərbaycan xalqı barəsində qərəzli siyasəti, yenidənqurma haqqında demaqoqcasına şüarlar altında sərhədləri dəyişdirmək və xüsusən Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdi; dördüncüsü, keçmiş mərkəzin mənəvi, siyasi, maliyyə və hərbi-iqtisadi yardımına əsaslanan erməni separatizmi və Ermənistanın təcavüzü; beşincisi, o dövrkü Azərbaycan rəhbərlərinin xəyanətkar fəaliyyəti.

Lakin Yanvar faciəsinə gətirib çıxarmış səbəb və amillərin yalnız yuxarıda sadalanmış siyahısı ilə kifayətlənmək olmaz. Yanvar faciəsinin daha dərin tarixi kökləri var. Qara Yanvar XIX əsrin əvvəllərindən bəri Azərbaycan xalqına qarşı törədilmiş cinayətkar əməllər silsiləsində ancaq bir vəsilədir. Azərbaycana qarşı qərəzli, ədalətsiz münasibətin əsasını uzaq hədəfli coğrafi-siyasi planlar təşkil edir ki, bu planları da SSRİ rəhbərliyi "beynəlmiləl qardaşlıq" kimi ideoloji pərdə altında uzun illər həyata keçirmişdir. Əgər Alma-Ata (1986), Tbilisi (1989), Vilnüs (1991) hadisələrinə müraciət etsək, onda hökmən belə bir sual yaranır: nə üçün həmin aksiyalar bu qədər qanlı və geniş miqyaslı olmamışdır? Nə üçün Tbilisi və Vilnüs hadisələri ilə əlaqədar Qorbaçov peşman olduğunu bildirdi, gürcü və Litva xalqlarından üzr istədi, Azərbaycanda baş vermiş hadisələrlə əlaqədar isə yalnız bir dəfə, 1995-ci ilin aprelində Türkiyədə səfərdə olarkən "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımda ən böyük səhvim idi" deyə səhvini etiraf etsə də, xalqdan üzr istəməyi lazım bilmədi.

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər ilin 20 Yanvarında onların əziz xatirəsini dərin ehtiramla yad edir.

20 Yanvar qətliamı xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı təcavüz idi. Lakin Azərbaycan xalqı öz qürurunu itirmədi, onun iradəsi qırılmadı. Xalqımızın qan yaddaşına silinməz faciə kimi yazılmış 20 Yanvar eyni zamanda qəhrəmanlıq səhifəsidir. Biz 20 Yanvarı milli matəm kimi qeyd edirik, ancaq o müdhiş gecəni həm də iftixar hissi ilə xatırlayırıq. Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsində 20 Yanvar faciəsinin özünəməxsus əhəmiyyəti var. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş cinayət, əbəs tökülmüş qanlar, insanların vəhşicəsinə qətlə yetirilməsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini daha da birləşdirdi, onların mübarizliyini daha da artırdı. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu. Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan tarixində "Qanlı Yanvar" faciəsi kimi yadda qalan 1990-cı ilin 20 Yanvar hadisələrinin səbəbləri və nəticələri daha dəqiq araşdırıldı və müstəqil Azərbaycan Respublikası 1994-cü ildə 20 Yanvar faciəsinin hərbi təcavüz və cinayət kimi tam siyasi-hüquqi qiymətini verdi, bu hadisələrin təşkilatçıları olan Mixail Qorbaçov, Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov və başqalarının cəzalandırılmasını tələb etdi.

20 Yanvar müqəddəs "Şəhid" kəlməsini yenidən bütün tarixi məzmunu ilə dilimizdə canlandırdı. XX əsrin əvvəllərində milli mənliyimiz və müstəqilliyimiz uğrunda şəhid olanların basdırıldığı yer, Sovet dövründə Dağüstü park adı ilə əyləncə yerinə çevrilərək xalqın yaddaşından silinmişdi. İndi isə müstəqilliyimiz, milli mənliyimiz, torpaqlarımızın azadlığı uğrunda canını fəda edən Vətən övladlarının dəfn olunduğu bu yer xalqın ziyarətgahına çevrilib. "Şəhidlər xiyabanı" - dünənimizi bu günlə, bu günümüzü sabahla birləşdirən, xalqın birliyinin, iradəsinin və qətiyyətinin nümayiş olunduğu müqəddəs bir məkandır.

Respublika rəhbərliyi tərəfindən hər zaman 20 Yanvar faciəsinin təbliğinə geniş önəm verilib. 2010-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Bakıda, 20 Yanvar meydanında möhtəşəm xatirə kompleksinin ucaldılması da məhz bu məqsədə, acı, lakin şərəfli tarixin xalqın yaddaşında yaşadılmasına xidmət edir.

Bu gün 20 Yanvar faciəsində şəhid olanların xatirəsini hörmətlə yad edərkən fəxrlə deyə bilərik ki, onların uğrunda canlarını qurban verdikləri müstəqilliyin əldə olunmasından artıq bir neçə il keçmişdir. Müstəqil Azərbaycan Respublikası dünya dövlətlərarası münasibətlər sistemində öz yerini tutmuş və bütün dünyaya sübut etmişdir ki, müstəqilliyimiz əbədidir, dönməzdir.

Ancaq müstəqilliyimizin ilk illərində, 1991-1993-cü illərdə Ermənistanın Azərbaycana qarşı ədalətsiz ərazi iddiası ilə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20%-i işğal olundu və bu gün Azərbaycanın ərazi bütövlüyü bərpa olunmamışdır. Ona görə də 20 Yanvar faciəsinin 26-cı ildönümü ərəfəsində hər bir Azərbaycan vətəndaşı, Azərbaycan Ordusunun hər bir əsgəri, giziri və zabiti bir daha dərk etməlidir ki, şəhidlərimizin qanı bahasına müstəqil olmuş Azərbaycanın ərazi bütövlüyünü bərpa etməliyik.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan Respublikası tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunması sahəsində görülən işlərlə bağlı Azərbaycan dövlətinin rəsmi mövqeyini bəyan edərək demişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Artıq 2016-cı tədris ilinin döyüş hazırlığı planına əsasən, hərbi hissələrdə və birləşmələrdə döyüş və ictimai-siyasi hazırlıq dərsləri başlamışdır. Qarşıda şəxsi heyəti gərgin dərs prosesi, çöl məşğələləri, taktiki təlimlər gözləyir. Azərbaycan Ordusunun hərbi qulluqçusunun bu dərslərdə və təlimlərdə əldə etdiyi yüksək nəticələr, hər bir nailiyyət, hər bir uğur bizi Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda müqəddəs mübarizədə qələbəyə daha da yaxınlaşdırır. Müasir döyüşdə ancaq yüksək döyüş hazırlıqlı, həvalə olunmuş texnikanın və silahların sirlərinə mükəmməl yiyələnmiş, intizamlı, mənəvi-psixoloji və fiziki cəhətdən dözümlü olan əsgər qalib gələ bilər. Hər bir Azərbaycan əsgəri bu keyfiyyətləri əldə etmək üçün dərslərdə və təlimlərdə komandirlər tərəfindən öyrədilənləri yaxşı qavramalı və döyüşdə tətbiq etməyi bacarmalıdır ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin qisasını almağa hazır olsun.

**Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

AZƏRBAYCAN ORDUSU



XX əsr Azərbaycan ədəbi-bədii fikrinin əsas simalarından biri olan xalq şairi Səməd Vurğun nəsillər üçün böyük bir ədəbi irsin müəllifidir. Ədəbi və ictimai fikir tariximizdə filosof, şair, dramaturq, tərcüməçi, tənqidçi və ictimai xadim kimi tanınmış söz ustadının yaradıcılığında bu günümüzlə səsləşən əsərlər saysız-hesabsızdır. O,

*Könlüm şeir istəyir*

# Bilsin ana torpaq, eşitsin Vətən...

Azərbaycan poeziyasına böyük yeniliklər gətirmişdir.

Şairin vətənpərvərlik ruhunda yazdığı şeirlərini oxuduqca adamın qəlbi riqqətə gəlir. Şair sanki bu günümüzü ruhən görür:

***Dağlarının başı qardır,***
***Ağ örpəyin buludlardır,***
***Böyük bir keçmişin vardır,***
***Bilinməyir yaşın sənin,***
***Nələr çəkmiş başın sənin.***
***Düşdün uğursuz dillərə,***
***Nəhs aylara, nəhs dillərə,***
***Nəsillərdən-nəsillərə,***
***Keçən bir şöhrətin vardır,***
***Oğlun, qızın bəxtiyardır...***

Burada şair Vətəninin ecazkar gözəlliyini, onun ulu keçmişini poetik hisslərlə oxucularına çatdırır. Eyni zamanda şair "nələr çəkmiş başın sənin" - deməklə, çox qədimlərdən bəri yurdumuzun yağı düşmənlərin təcavüzünə məruz qalmasını sətiraltı ifadələrlə qeyd edib. Eyni zamanda, dahi şair sanki Azərbaycanın bu gününü də görüb, oğlunun-qızının necə bəxtiyar bir həyatda və müstəqil Vətəndə yaşayacağını da vəsf edib.

Səməd Vurğun üçün dolğun həyat fəlsəfəsi xalqla təbiətin vəhdətindən, Vətəninə, el-obasına məhəbbətdən, sədaqətdən doğurdu. Şairin, sənətkarın da ölməzliyi, böyüklüyü elə ondadır ki, o əsərlərini həm dövrün ruhuna uyğun və uzaqgörənliklə yaratmağı bacarır.

Dahi şair 1934-cü ildə bu gün də sevə-sevə oxuduğumuz, ürəklərimizə yol tapan, məşhur "Azərbaycan" şeirini yazmaqla özünün zəmanə ruhlu şair olduğunu, düşüncə və təfəkkürü dərin olan oxucuya, gələcək tədqiqatçılara isə bəşəri duyğulu sənətkar olduğunu sübut etmişdi. Bu gün aramızda "Azərbaycan" şeirini əzbər bilməyən varmı? Yəqin ki, yox!

***El bilir ki, sən mənimsən,***
***Yurdum, yuvam məskənimsən,***
***Demək, doğma Vətənimsən,***
***Ayrılarmı könül candan?***
***Azərbaycan, Azərbaycan!***

Şair olan kəs, o xalqın milli ruhunu daşıyırsa, həmin sənətkar əbədi olaraq yaddaşlarda yaşayacaq. Milli hisslərini öz əsərlərində tərənnüm edə bilməyən şair bəşəri müstəviyə çıxa bilməz. Səməd Vurğunun ədəbi yaradıcılığı məhz milli dəyərlər əsasında qurulmuşdu.

Vətənini sevən insanlar Səməd Vurğun yaradıcılığını oxuyub mütaliə etsələr, Vətənə olan məhəbbətləri birə-beş artar.

Böyük Vətən müharibəsi illərində şairin qələmə aldığı bu misralar elə indi də dillər əzbəridir:

***Bilsin ana torpaq, eşitsin Vətən,***
***Müsəlləh əsgərəm mən də bu gündən...***

Vətənpərvərlik duyğuları ifadə edən bu misralar hər zaman öz bədii dəyərini qoruyub saxlayacaq. Bu gün hamımız şairin milli hissləri qarşısında baş əyib Vətənə müsəlləh əsgər olmalıyıq.

**Mayisə ƏSƏDULLAQIZI,**
**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

*Redaksiyanın poçtundan*

# Əsl bayram ovqatı yaşandı

***Oğul böyüyür, boya-başa çatır, Vətən borcunu yerinə yetirməyə gedir... Oğlum Samir 6 aydı hərbi xidmətdədir. Onun andiçmə mərasimində xidmət yeri ilə tanış olmağa şərait yaradılmışdı. Gördüklərimdən razı qalmışdım. Oğlumun hərbi xidməti ilə bağlı zərrəcə narahatlığım yoxdur.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bayram günündə əsgər ata-analarına böyük sevinc bəxş etdiyini eşidəndə çox sevindim: Silahlı Qüvvələrimizdə "Açıq qapı" günü keçiriləcək. Bu tədbirin bayram günü keçirilməsi ata-analara böyük sevinc gətirmişdi.

Həmişə bayramları övladlarımla birgə keçirməyi arzulamışam. Bu il bayram günündə oğlumla nəfəs-nəfəsə ola bilməyəcəkdik. Hərbi xidmət vacib borcdur. Vətən borcunu yerinə yetirən oğlumla bayram günündə görüşmək imkanımızın yarandığına görə çox sevindik. Hansısa sovqata hərbi hissədə ehtiyac olmadığını bilirdik. Ancaq ana ürəyidi, anasının hazırladığı bayram sovqatını ona çatdırdım. Elə bil üstümdən dağ götürüldü...

"Açıq qapı" günündə bizi olduqca hərarətlə qarşıladılar. Sözün əsl mənasında, bütün qapılar üzümüzə açıldı. Hərbi hissədə kim nə ilə istəsə maraqlana bilərdi, nə istəsə soruşardı. Zabitlər soruşulanlara böyük həvəslə cavab verirdi. Oğlumla söhbətdə dedim ki, belə bir şəraitdə xidmət matrosa qürur verməlidi. Unutmayın ki, siz müstəqil Azərbaycanda, Hərbi Dəniz Qüvvələrimizdə xidmət edirsiniz.

Ata həmişə oğlu haqqında xoş sözlər eşitmək istəyir. Bu bayram günündə oğlumun nümunəvi xidmət etdiyini eşidəndə ürəyim dağa döndü. Sevindim ki, Samir valideynlərindən, müəllimlərindən eşitdiklərinə ciddi əməl edir. Mən xoşbəxt atayam, çünki matros atasıyam!

Samir də hərbi xidmətə başlayanda and içmişdi. Həmin gün nə onun, nə də mənim yaddaşımdan silinməyəcək. Həmin gün o da digər silahdaşları kimi Vətənə layiq əgər olacağına and içmişdi və bizi də, zabitləri də əmin etmişdi ki, layiqli xidmət edəcəkdir. Sevinirəm ki, digər yoldaşları kimi oğlum da vədinə ciddi əməl edir.



"Açıq qapı" günü cəmiyyətin ordu haqqında təəssüratlarını daha da dərinləşdirir, zənginləşdirir. Əsgər valideynləri, deməli, cəmiyyət görür ki, belə bir ordu torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Hörmətli redaksiya! Bizə belə bir sevinc yaşatdığına görə əsgər ataları adından dərin minnətdarlığımızı Müdafiə naziri general-polkovnik Zakir Həsənova çatdırmağınızı xahiş edirəm. Tam məsuliyyətilə əminliyimizi bildiririk ki, oğullarımız nümunəvi xidmətləri ilə ordumuza bundan sonra da başucalığı gətirəcəklər.

**Mübariz QASIMOV,**
**Biləsuvar rayonu**

# Oğlum matrosdur



***Ata-ana üçün oğlunun hərbi xidmətə yararlı olması, həmyaşıdları kimi orduya yola salınması böyük xoşbəxtlikdir. Belə xoşbəxtlik mənə də nəsib olub. Bundan qürur, fəxr duyuram.***

15 ildi Sankt-Peterburq şəhərində yaşayıram. Etiraf edirəm ki, qürbət qürbətdir. Bir şeirdə deyildiyi kimi, Vətənin bircə qarlı qış günü qürbətin gül baharından gözəldir.

Oğlum Allahverdi Sankt-Peterburq şəhərində təhsil alıb. Vətəndən uzaqda yaşasaq da, ürəyimiz Vətəndən iraq olmayıb. Özüm də, Azərbaycan vətəndaşı olan oğlum da həmişə Azərbaycanla nəfəs almışıq. Azərbaycan filmlərinə baxmışıq, ruhumuz Azərbaycan musiqisindən kövrəkləşib. Bütün bayramları qeyd eləmişik. Allahverdi sinif yoldaşlarını, dostlarını hər Novruz bayramında evimizə dəvət edib. Onlar mətbəximizlə, bayramlarımızın mahiyyəti ilə yaxından tanış olublar. Etiraf ediblər ki, millətimiz yüksək mədəniyyətə, zəngin ənənələrə malikdir. Zənnimcə, Vətəndən uzaqda yaşayanların hamısı belə etməlidi...

Vətəndən uzaqda yaşasaq da, son vaxtlar Silahlı Qüvvələrimizdə həyata keçirilən irimiqyaslı islahatlar haqqında biz də eşidirdik. Qəzetlərdən, internetdən oxuduqlarımız bizi də sevindirirdi. Səməd Vurğun demişkən, gözlərimiz gözlərinizdən uzaq olsa da, həmişə könlümüzdən könlünüzə yollar olub. Biz də inanırıq ki, atəşkəsi pozan düşmən daha ağır itkilərə məruz qalacaq. Yaxın vaxtlarda torpaqlarımız işğaldan azad ediləcək.

"Açıq qapı" günü Müdafiə naziri general-polkovnik Zakir Həsənovun biz analara, bizim timsalımızda cəmiyyətə böyük sayğısıdır. Əsgər anaları adından bu böyük sayğıya görə Müdafiə nazirinə minnətdarlığımı bildirirəm.

Həmin tədbirdə oğlumun xidmət elədiyi hərbi hissədə gördüklərim ordumuza inamımı, güvəncimi qat-qat artırdı. Matroslara yaradılan şərait ana kimi mənim də ürəyimi dağa döndərdi. Zabitlərlə söhbətlərimdə bir daha əmin oldum ki, burda matros-zabit münasibətləri Hərbi Nizamnamələrin tələbləri əsasında qurulub. Bununla yanaşı, onu da müşahidə elədim ki, matroslar komandirlərini, ümumən zabitləri sevdiyi qədər zabitlər də matrosları sevir. Bu qarşılıqlı sevgi hərbi xidmətin çətinliklərini asanlıqla aradan qaldırmağa həmişə kömək eləyir.

Hərbi xidmət dövründə oğlumda müşahidə elədiyim dəyişikliklər mənə o qədər sevinc gətirib ki, bunu sözlə ifadə eləməyə çətinlik çəkirəm.

Hörmətli redaksiya! Qəzetiniz vasitəsilə bu il biz analara gözəl bayram ovqatı bəxş etdiyinə görə matros anaları adından Müdafiə nazirinə, Hərbi Dəniz Qüvvələrinin komandanlığına minnətdarlığımı çatdırmaq istəyirəm. Əminliklə deyirəm ki, oğullarımız bundan sonra da komandirlərinin əmr və tapşırıqlarını sözsüz yerinə yetirəcəklər.

**Susonası ABDULLAYEVA,**
**matros anası**

*Əsgərə məktub*




Məmməd Aslanın şeirindəndi. Sizə ünvanlanıb. Ancaq təkcə sizin yox, hamımızın amalımızı ifadə edir. Əziz əsgərlər, bilirəm ki, indi xidmətdəsiniz, tapşırıqları yerinə yetirirsiniz. Ön xətdə xidmət edən cəsur əsgərlər, siz Vətənin keşiyini çəkir, yurdumuzu işğalçılarından qoruyursunuz. Son vaxtlar televiziyadan, mətbuat səhifələrindən uğurlarınızı eşidib sevinirik. Ermənilərin pilotsuz uçan təyyarələrini də vurursunuz, atəş nöqtələrini də susdurursunuz. Düşmən hər addımda hiss edir ki, qarşısında güclü, qüdrətli əsgər dayanıb.

Ordu həyatı kişilik məktəbidir. Xidmət müddətində xeyli həyat təcrübəsi toplayır, sınaqlardan keçirsiniz. Ordu sıralarında olarkən həm fiziki, həm də mənəvi-psixoloji hazırlığınızı artırırsınız. Gündəlik xidmətinizdə həm komandirlərlə, həm də əsgər dostlarınızla ünsiyyətdə olursunuz. Həyata baxışlarınız dəyişir, dünyagörüşünüz formalaşır. Daha qətiyyətli, daha güclü olursunuz.

Döyüş sirlərinə yiyələnmək elə də çətin iş deyil. Əziz əsgərlər, bunun üçün ilk günlərdən xidmətinizə məsuliyyətlə yanaşın. Komandirlərinizin məsləhətlərinə qulaq asın. Onların əmrlərini düzgün yerinə yetirin. Bütün işlərdə fəal olmağa çalışın. Dərslərə, məşğələlərə həvəslə qatılın. Nizamnamələri yaxşı öyrənin, qaydalara ciddi əməl edin. Silahları dərindən mənimsəyin. Bildiklərinizi gənc əsgərlərə də öyrədin.

Bütün çətinliklər iradəli və mübariz insanların qarşısında qar kimi əriyib gedir. Əziz əsgərlər, siz iradəli və mübariz olmaqla addım-addım qələbəyə yaxınlaşırsınız. Bu mənəvi keyfiyyətlərə sahib olan insanlar heç vaxt məğlubiyyətlə üzləşmirlər. Dünyaca məşhur olan yazıçı Ernest Heminquey bu barədə belə yazmışdır: "İnsan məğlub olmaq üçün yaranmayıb. İnsanı məhv etmək olar, amma məğlub etmək olmaz". Əziz əsgərlərimiz, siz də məğlubedilməzsiniz.

Vətənə xidmət etmək, yurdu düşməndən qorumaq müqəddəs vəzifədir. Çünki biz bu torpağın üstündə doğulmuşuq. Onu qorumaq mənəvi borcumuzdur. Hər birinizin ürəyi Vətənə sevgi və məhəbbətlə döyünür. Yurdumuzu göz bəbəyiniz kimi qoruyursunuz. Yuxarıda dediyim kimi, gözəl şair Məmməd Aslan bu şeir parçası ilə sanki sizin xidmətinizi vəsf etmişdir:

***...Vətən gözdü, biz kiprik,***
***Gözümüzün keşiyini çəkirik!***

Əziz əsgərlər, sizə məktub yazmağa hazırlaşdığım ərəfədə təsadüfən əlimə keçmiş maraqlı bir kitab oxuyurdum. Kitabda gözəl deyimlər, dəyərli fikirlər, hikmətli məsləhətlər var idi. Gözlərim polyak şairi, filosof Yeji Letsin bu sözlərində ilişib qaldı: "Məğlub olmaqdan utanırsan? Qalib gəl!" Gözəl sözlərdir. Məğlub olmaq həmişə adama utancaqlıq gətirir. Bunun üçün bir yol var, filosof demişkən qalib gəl! İnanıram ki, siz bu etimadı, inamı Vətənə, xalqa, dövlətə sədaqətli xidmətinizlə doğruldacaq, ölkəmizin təhlükəsizliyinin keşiyində, torpaqlarımızın müdafiəsi naminə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin əmrlərinə hər an hazır olacaq və "Qarabağ torpağı erməni işğalçılarının ayağı altında od tutub yanacaqdır" şüarı ilə başlayacağımız yeni 2016-cı ildə xalqımızı qələbə müjdələri ilə sevindirəcəksiniz.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Yazı SHXÇDX-in "Əsgərə məktublar" adlı müsabiqəsinə təqdim olunur*

*Fiziki hazırlıq*

# Yeni uğurlar sorağında...

***İdmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə himnimiz səsləndirilir, bayrağımız qaldırılır və bununla da Vətənimiz dünyanın müxtəlif ölkələrində tanınır.***

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin fiziki hazırlıq bölməsinin müəllimi Vüsal Qismət oğlu İsrafilov Şamaxı rayonunda anadan olub. Vüsal doqquz yaşından idmanla məşğul olmağa başlayıb. 1998-2002-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib. Vətən qarşısında müqəddəs əsgəri borcunu verdikdən sonra özünü əlbəyaxa döyüş sənəti olan karate növünə həsr edib. Ölkəmizdə bir neçə karate federasiyası fəaliyyət göstərir.



1999-cu ildə keçirilən karate üzrə Azərbaycan çempionatında qızıl medal qazanıb, ilk dəfə Bakıda təşkil olunan Avrasiya kubokunun isə bürünc medalına layiq görülüb. 2000-ci ildə İranda Dünya kuboku uğrunda yarışda və Qazaxıstan çempionatında gümüş medalla mükafatlandırılıb. 2001-ci ildə Kiprdə keçirilən Avropa çempionatının iştirakçısı olub.

İdmançımız respublikamızda keçirilən yarışlarda dəfələrlə qızıl, bürünc və gümüş medallara layiq görülüb. 2006-cı ildə Yaponiyanın Tokio şəhərində keçirilən dünya çempionatında qızıl medala yiyələnib. 2009-cu ildə Macarıstanın Eqer şəhərində məşhur yapon karate-do ustadı Qiçin Funakoşinin şərəfinə təşkil olunmuş dünya çempionatında Vüsal bürünc medalla mükafatlandırılıb. Ötən il isə Moskvada Avropa çempionatında gümüş medal əldə edib.

2014-cü ilin avqustunda Türkiyənin Ərzurum şəhərində karate üzrə beynəlxalq turnir keçirilirdi. Azərbaycanı təmsil edən komandanın heyətində Vüsal İsrafilov da yer almışdı. Mənə elə gəlir ki, bu yarış hər birimizin yaddaşındadı. Turnirdə idmançılarımız erməni rəqiblərini böyük üstünlüklə məğlub edərək, 7:0 hesablı qələbə qazanmışdılar.

Müsahibim bu turnir barəsində danışanda bildirdi ki, vətənpərvərlik hissləri idmançının qələbə əzmini daha da artırır və onu böyük uğurlar qazanmağa ruhlandırır. "Hər bir idmançı yarışa çıxarkən təkcə özü üçün mübarizə aparmır. Xalqını, dövlətini təmsil edir. Ölkəmizi beynəlxalq arenalarda təmsil edən hər bir idmançı bilir ki, əldə etdiyi qələbə sayəsində himnimiz səslənəndə, bayrağımız yüksəklərə qalxanda bu qələbəyə, bu uğura bütün Azərbaycan xalqı sevinir".

3-cü dan qara kəmər ustası olan Vüsal İsrafilov 2008-ci ildən Hərbi Liseydə fiziki hazırlıq müəllimi işləyir. Kursantların fiziki və mənəvi cəhətdən sağlam böyüməsi üçün əlindən gələni edir. Çünki gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində idmanın rolu əvəzsizdir. Heç şübhəsiz ki, gənclərimizin vətənpərvərlik hisslərinin formalaşması onların ordumuz üçün güclü əsgər kimi yetişməsinə şərait yaradır.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan şahmatçısı açıq Avstraliya çempionatının qalibi olub



Avstraliyanın Melbrun şəhərində şahmat üzrə açıq ölkə çempionatı başa çatıb.

Ölkəmizi təmsil edən beynəlxalq usta Kənan İzzət 11 oyundan 8.5 xal toplayaraq yarışın qalibi adını qazanıb. Yerli şahmatçılar Bobbi Çen 8 xalla ikinci, Karl Zelesko isə 7,5 xal toplayaraq üçüncü yerin sahibi olublar.

Qeyd edək ki, yarış İsveçrə sistemi üzrə 11 turdan ibarət keçirilib və 34 şahmatçı qələbə uğrunda mübarizə aparıb.

## "Azərreyl" komandası "Gənclik" klubuna qalib gələrək turnir cədvəlinin birinci pilləsinə yüksəlib



Yanvarın 13-də qadın voleybol komandaları arasında Azərbaycan Super Liqası yarışlarının XV turu çərçivəsində bir oyun keçirilib.

Azərbaycan Voleybol Mərkəzində "Azərreyl" komandası "Gənclik" klubu ilə qarşılaşıb. Görüş Çempionlar Liqası yarışlarında mübarizə aparan təmsilçimiz "Azərreyl" komandasının 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Hesabındakı xalların sayını 22-yə çatdıran "Azərreyl" turnir cədvəlinin birinci pilləsinə yüksəlib. "Telekom" komandası 20 xalla ikinci, "Lokomotiv" isə 16 xalla üçüncü pillədə qərarlaşıb.

## Ukraynalı məşqçi "Qəbələ"dən ayrılıb




"Qəbələ" futbol klubunun qapıçılar üzrə məşqçisi Andrey Qluşenko komandadan ayrılıb.

Ukraynalı mütəxəssis ailə vəziyyətinə görə vətəninə geri dönüb. A.Qluşenkonu "Qəbələ"nin əvəzedicilər üzrə komandasının qapıçı-məşqçisi Vüqar Məmmədov əvəz edib.

Qeyd edək ki, Vüqar Məmmədov daha əvvəl də əsas komandada fəaliyyət göstərmişdi. O, Toni Adams, Ramiz Məmmədov və Fatih Kavlakın məşqçilər korpusunda yer almışdı.

## Azərbaycan millisi Gürcüstan və İran boksçuları ilə birgə hazırlıq keçir



Ötən ili tarixi uğurlarla başa vuran boks üzrə Azərbaycan milli komandası yeni ilə də ciddi hazırlıqlarla başlayıb.

Müəyyən fasilədən sonra idmançılarımız baş məşqçi Pedro Roke və böyük məşqçi Nəriman Abdullayevin rəhbərliyi altında təlim-məşq toplanışındadır.

Hazırlığa iki komanda cəlb olunub. Boks üzrə Mərakeş milli komandasından sonra Gürcüstan və İran komandaları da paytaxtımızın qonağıdır. Həmin ölkələrin boksçuları Azərbaycan idmançıları ilə birlikdə məşqləri davam etdirirlər.

Komandamız hazırlıq prosesini tam heyətlə davam etdirir.

Təlim-məşq toplanışına bir müddət əvvəl yekunlaşan Azərbaycan çempionatının qalibləri də qoşulub.

Boksçularımızı qarşıda iki beynəlxalq turnir gözləyir. Onlar əvvəlcə Macarıstan, daha sonra isə Bolqarıstanda rinqə çıxacaqlar.

## Bakının "İnter" futbol klubu Antalyada ilk yoxlama oyununu keçirib



Antalyada təlim-məşq toplanışında olan Bakının "İnter" futbol klubu yanvarın 13-də ilk yoxlama oyununu keçirib.

Bakı təmsilçisi Almaniyanın "Verder" klubunun 23 yaşadək futbolçulardan ibarət komandası ilə qarşılaşıb.

Qarşılıqlı hücumlar şəraitində keçən görüşdə Almaniya klubu minimal hesablı qələbə qazanıb - 1:0.

"İnter"in Antalya toplanışında daha üç yoxlama oyunu keçirməsi planlaşdırılır. "Verder"in əsas heyəti ilə görüş yanvarın 15-də baş tutacaq. "İnter" yanvarın 19-da Çexiyanın "Slovan", bundan dörd gün sonra isə Qazaxıstanın "Atırau" kollektivi ilə üz-üzə gələcək.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Qarayev Təbriz İmanqulu oğluna 2012-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüseynov Elşad Adil oğluna 2008-ci ildə verilmiş (MN №0024767) şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 25
Nüsxə 4700